İran İslam Resublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

# Allahın Adı İlə

## İmam Məhdi Sahib əz-Zəmanın (ə.f) Təvəllüdü Günü Mübarək Olsun!

## İmam Mehdi Sahib əz-Zəmanın (ə.f)

## Həyatı və Fəaliyyəti Haqqında Xüsusi Elektron Jurnal



# Ali Məqamlı Rəhbərin Nəzərində Zühuru Gözləmək



Ali Məqamlı rəhbər İntizare fərəc (İmam Mehdinin (ə.f) zühurunu gözləmək) və onu gözləyənlərin vəziyyəti barədə buyurur: “Sahib əz-Zamanı gözləyənlər qəlblərində cəmiyyətin həyatının yaşayışının yaxşılaşmağına, dünyanın müstəmləkəçi zalımlarının cinayət və hiylə, zülm və təcavüz dövrünün sona çatmasına ümid bəsləyirlər. Onların qəlblərindəki ümid çeşməsi əsla qurumaz. İmamın zühurunu gözləyənlər onun qüdrətinin bütün fitnələrin qalalarını yıxacağına, zülm və ədalətsizlik dövrünün bitəcəyinə şübhə etmirlər. Biz inanırıq ki, vəd edilmiş Mehdinin (ə.f) zühuru ilə insan düşüncəsi və zəkası həmişəkindən daha yaradıcı olacaq. Qlobal miqyasda tamamilə sülh və təhlükəsizlik olacaq. "Biz çalışmalıyıq ki, dünya hər gün bu ideal dövrə daha da yaxınlaşsın.”

**Seyid Əli Xamenei – İran İslam İnqilabının Ali Məqamlı Rəhbəri**



Miladi tarixi ilə 8 mart 2023-ci il, hicri-şəmsi tarixi ilə isə 17 Esfand 1401-ci il İmam Məhdinin (ə.f) təvəllüdü günüdür. Məşhur hədislərə əsasən, İmam Zaman ağa (ə.f.) 255 Hicri ilinin Şəban ayının 15-də cümə gecəsi anadan olmuşdur. Şeyx Mufidin dediyinə görə, atası İmam Həsən Əsgərinin (ə) ondan başqa övladı olmamışdır.

Həzrətin anasının adı Nərcis (s.ə.) idi və o, çox iffətli və layiqli bir xanım idi. Onu Süsən, Siqəl, Siqil, Məleykə də adlandırırdılar. O, Roma imperatorunun oğlu Yuşanın qızı idi, Həzrət İsanın (ə) tərəfdaşlarından olan Şəmunun nəvəsi idi və İlahi bir möcüzə nəticəsində on birinci İmamın (ə) həyat yoldaşı olur.

Nərcis xanım (s.ə.) Romada olarkən qəribə yuxular görərdi. Bir dəfə yuxuda əziz İslam Peyğəmbəri (s) ilə Həzrət İsanı (ə) görür ki, onun nikahını İmam Həsən Əsgəriyə (ə) bağlayırlar. O, yuxuda başqa qeyri-adi şeylər də görürdü və Həzrət Fatimeyi-Zəhraınn (s.ə.) dəvəti ilə müsəlman olur. Ancaq müsəlman olduğunu ailəsindən və ətrafındakılardan gizlədir.

Müsəlmanlar ilə romalılar arasında müharibə başlayır, Roma imperatoru ordusu ilə bir yerdə müharibəyə yollanır. Nərcis xanıma (s.ə.) yuxuda əmr edilir ki, gizlin şəkildə kənizləri ilə bir yerdə sərhədə gedən ordunun ardınca getsin. O, bu cür edir və sərhəddə müsəlmanlar onları əsir tutub, başqa bir əsirlərlə Bağdad aparırlar.Bu hadisə onuncu İmamın (ə) İmamət dövrünün sonlarında baş vermişdir.

İmamın roma dilində yazdığı məktubu Bağdadda Nərcis xanıma (s.ə.) verirlər.

Məktubu aparan elçi onu qul kimi satın alır və İmam Hadinin (ə) yanına gətirir. İmam onun gördüyü yuxuları Nərcisin (s.ə.) yadına salır və ona müjdə verir ki, o, on birinci İmamın (ə) həyat yoldaşı olacaq və dünyaya elə bir övlad gətirəcəkdir ki, bütün aləmi ədalətə və nura boyayacaqdır. İmam Hadi (ə) Nərcis xanımı (s.ə.) bacısı Həkiməyə (s.ə.) tapşırır ki, ona İslam adət-ənənələrini başa salsın. Bir müddət sonra Nərcis xanım (s.ə.) İmam Həsən Əsgəri ilə (ə) ailə qurur.

**Təvəllüdü:**

Əməvi və Abbasi xəlifələri Peyğəmbərdən (s) onlara çatan hədislərə əsasən bilirdilər ki, gec-tez İmamın (ə) nəslindən elə bir oğlan dünyaya gələcəkdir ki, zülmə qarşı çıxacaq və ədaləti bərqərar edəcəkdir. Ona görə də onlar gözləyirdilər ki, bu körpə dünyaya gələn kimi onu məhv etsinlər.

İmam Həsən Müctəbanın (ə) zamanından başlayaraq, Peyğəmbər (s) nəslinə edilən təzyiqlərin sayı artır. İmam Həsən Əsgərinin (ə) zamanında ən son həddinə çatır.

O Həzrətin (ə) bütün həyatı xəlifələrin nəzarəti altında idi. O, evə gedənlərə və gələnlərə nəzarət edilərdi. Belə ki, bu cür şəraitdə İmamın (ə) dünyaya gəlməsi aşkar şəkildə ola bilməzdi. Ona görə də onun anasında hamiləliyin heç bir əlaməti görünmürdü və hətta İmamın (ə) ən yaxın adamları belə körpənin dünyaya gəlməsindən xəbərsiz idilər.

İmam Həsən Əsgərinin (ə) bibisi Həkimənin (s.ə.) dediyinə görə: "Həsən ibni Əli (ə) mənim dalımca gəlmişdi və buyurur ki, iftarı onlarla bir yerdə edim. Çünki bu gecə Şəban ayının on beşidir. Allah bu gecə yer üzərində olan hüccətini aşkar edəcəkdir. Soruşdum: "Anası kimdir?". Buyurdu: "Nərcis" (s.ə.). Ərz etdim: "Allah məni sizə fəda etsin, ancaq onda hamiləliyin heç bir əlaməti yoxdur". Buyurdu: "Mövzu, necə demişəmsə, elədir".

Həkimə xanım (s.ə.) nəql edir ki, mən İmam Həsənin (ə) evinə getdim və salam verəndən sonra oturdum. Nərcis xanım (s.ə.) mənim yanıma gəldi və ayaqlarımdakı ayaqqabını çıxararaq dedi: "Ey mənim banum! Gecəni necə keçirtmisən?". Dedim: "Sən mənim və mənim nəslimin xanımısan". Sözümü inkar

etdi və dedi: “Bibi nə olub ki?”. Ona dedim: “Qızım! Allah Təala bu gecə sənə bir oğlan əta edəcəkdir ki, dünya və axirətin səadəti olacaqdır”. Nərcis (s.ə.) həya edib, yerində oturdu. İşa namazını qıldım və iftar etdim. Yatağa gedib yatdım, gecənin yarısı namaza qalxdım və namazımı tamamladım. Halbuki, Nərcis (s.ə.) yatmışdı və doğumdan heç bir xəbər yox idi. Namazımı qurtarıb, yatdım, ancaq bir az keçməmiş heyrətlənmiş halda yerimdən qalxdım. Bu zaman Nərcis (s.ə.) də durub, namaz qılırdı. Həmin vaxt şəkk sorağıma gəlməyə başladı. Ancaq bu zaman Əbu Muhəmməd (ə) (İmam Həsən Əsgəri) oturduğu yerdən dilləndi: “Ey bibi! Tələsmə ki, həmin an yaxınlaşır”.




Həkimə (s.ə) davam edir: “Səcdə” və “Yasin” surələrini oxuyurdum ki, Nərcis ağrıyaraq, yuxudan ayılır. Mən tələsik onun yanına getdim və dedim: “Allahın adına and içirəm, nə isə hiss etdin?”. Dedi: “Bəli, bibican”. Dedim: “Özünə hakim ol və sakitliyini qoru ki, bu mənim sənə dediyim şeydir”. Az bir

müddət ərzində yuxuladım, elə bu zaman doğum baş verdi və mən körpənin hərəkəti ilə yuxudan ayıldım. Gördüm ki, o, səcdə əzalarını yerə qoyub, səcdə edir. Onu qucağıma götürdüm və gördüm ki, o, tamamilə pak və təmizdir. Bu zaman Əbu Muhəməd (ə) dedi: “Ey bibi! Övladımı yanıma gətir”. Körpənin onun yanına apardım. İmam (ə) əllərini onun belinin altına qoyur və ayaqlarını sinəsinə dirəyir. Dilini körpənin ağzına salır və əllərini onun gözlərinə və qulaqlarına çəkir. Sonra deyir: “Oğlum! Danış”. Körpə dil açır və deyir: “Şəhadət verirəm ki, Allahdan başqa İlah yoxdur, heç bir şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd (s) Allahın göndərdiyi Rəsuldur”. Sonra Əmirəl-mömininə (ə) və qalan İmamlara salam göndərib, atasına çatır”.

Həzrət Məhdinin (ə) dünyaya gəlişini çox az adam bilirdi. Onunla görüşə də çox insan nail olmuşdur.



**Adı, Kunyəsi və Ləqəbi**

Həzrətin (ə.f.) adı və kunyəsi həzrət peyğəmbərin (s) adı və kunyəsidir. Bəzi hədislərdə deyilir: "O zamana qədər ki, Allah yer üzərində zühuruna və dövlətinin möhkəmlənməsinə zinət bağışlamamışdır, heç kimə rəva deyildir ki, onun adı və kunyəsini dilinə gətirsin". Buna görə də bəzi fəqihlər onun adını çəkməyi məkruh bilmiş, bəziləri isə bu qadağanın kiçik qeyb dövrünə aid olduğunu söyləmişdilər. Çünki o zaman həyati təhlükə var idi. Ona görə də fəqihlər onu müxtəlif ləqəblərlə çağırmağa başlamışdılar: Hüccət, Qaim, Məhdi, Xələfəl-Salih, Sahibi Zaman, Sahibi-Dar kimi. Kiçik qeyb zamanı həzrətin tərəfdaşları onu "Nahiyi-Müqəddəsi" deyə çağırırdılar.

**Kiçik (Suğra) Qeyb**

260-cı hicri ilində Rəbiül-əvvəl ayının 8-də, yəni o zaman ki, İmam Zaman ağnın (ə.f.) beş yaşı var idi, Abbasi Xəlifəsi Mötəmid İmam Həsən Əsgərini (ə) zəhərləyib, şəhid edir. İmam Əsr (ə.f.) atasının (ə) qəbri üzərində namaz qılır.

İmam Həsən Əsgərinin (ə) şəhadəti ilə İmam Zaman ağanın (ə.f.) İmamət zamanı başlayır. Kiçik qeyb zamanı da elə o dövrə təsadüf edir. Yəni 260-ci Hicri ilində başlayır, 329-cu ilə qədər davam edir. Bəziləri bu vaxtın 69 il olduğunu, bəziləri isə 74 il olduğunu söyləyirlər.

**Böyük (Kubra) Qeyb**

329-cu Hicri ilində İmamın (ə) həyatında başqa bir dövr başlayır. Onu böyük qeyb adlandırırlar. Bu qeyb hələ də davam etməkdədir. Kiçik qeyb dövründə insanlar İmamın (ə.f.) köməkçiləri vasitəsilə onunla əlaqə saxlayır və suallarına

cavab tapırdılar. Ancaq böyük qeyb dövründə sualı olan müsəlmanlar fəqihlərə müraciət edirlər.

**Fərəc duası (Salamatlıq Duası)**

Rəhman və Rəhim Allahın adı ilə

İlahi! Canişinin, Höccət ibnil-Həsənə (Salavatın ona və əcdadına olsun), öz məsləhətinlə onu yer üzündə sakin edənə kimi, uzun müddət hamı üçün xeyr-bərəkət qərar verənə qədər, vəli, qoruyan, rəhbər, kömək edən, yol göstərən və gözətçi ol!!! Öz rəhmətinlə ey aləmlərin rəbbi!

**Zuhur duasının oxumağın savabı:**

1.Şeytanın narahat olmasına səbəb olur.

2.Duanın qəbul olmasına səbəb olur.

3.Axır zamanda baş verən fitnələrdən amanda olar.

4.Gunahların bağışlanmasına səbəb olur.

5.Qiyamət gunundə İmam Zamanın (ə.c) şəfaətinə səbəb olar.

6.İmam Zamanın (ə.c) yolunun gözlənməsinin nişanəsidir.

7.İmam Zamanın (ə.c) zuhurunun tezləşməsinə səbəb olar.

8.Ömrun uzanmasına səbəb olar.

9.Ölum vaxtı müjdə verilər və onunla mülayim rəftar olunar.

10.Qəlbdə İmam Zamanın (ə.c) nurunun coxalmasına səbəb olar.

11.Allah yanında ən sevimli insana cevrilər.

12.Pis əməlləri yaxşı əməllərə çevrilər.

13.Əli (ə)-ın Qiyamətdə ona dua etməsinə səbəb olar.

14.Hesabsız olaraq Behiştə daxil olar.

15.Məlaikələr ondan ötru bağışlanma duası edərlər.

16.Qiyamət gununun teşnəliyindən amanda olarlar.

17.Bu, dua Bərzəx aləmində insanın həmdəmi olar.

18.Qəm-qussənin insandan uzaqlaşmasına səbəb olar.

19.Bu, dua Allah yanında ən bəyənilmiş əməllərdən biridir.

20.Qiyamətdə, ondan ötru xususi hədiyyə olar.

21.Dinin kamil olmasına səbəb olar.

22.İmam Zamanın (ə.c) bayrağı altında şəhid olanın savabı var.

23.İmamlarla (əleyhimussalam) məhşur olar.

24.Qiyamətdə şəhidliyin ən yüksək məqamına nail olar.

25.Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) şəfaətinə səbəb olar.